# Əbədiyaşar şəxsiyyət Mir Cəlal Paşayev – 115



(Daycest)

**Bakı – 2023**

XX əsr Azərbaycan humanitar-intellektual, ədəbi-filoloji düşüncəsinin görkəmli nümayəndəsi Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Ərdəbil vilayətində, yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Şimali Azərbaycana - Gəncəyə köçdüyündən uşaqlığını burada keçirib. Mir Cəlal 10 yaşında olanda, 1918-ci ildə atası vəfat etmiş, o, böyük qardaşının himayəsində yaşayıb.

Balacalığından fitri istedadı ilə ətrafdakıların diqqətini cəlb edən Mir Cəlal 1918-1919-cu illərdə xeyriyyə cəmiyyətinin köməyi ilə ibtidai təhsil alıb və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə darülmüəlliminə daxil olub. Tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri seçilib.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal, elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. Sözün gücünə güvənib, onun böyüklüyünə baş əyən sənətkarın könüllərə yanğı salmış "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi ədəbiyyat tariximizin səhifələrində müəllifinə əbədiyaşarlıq qazandırmışdır. Yuxusuz gecələrinin, gərgin zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qızıl nüsxələrindəndir.

Mir Cəlalın yüksək professionallığa malik alim qələminin məhsulu olan "Azərbaycanda ədəbi məktəblər" monoqrafiyası XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı tarixi, mədəniyyəti, elmi, ictimai həyatı haqqında ən sanballı elmi əsərdir. Bu kitab o dövrün ədəbiyyatının tək faktoloji icmalı yox, həm də bədii-estetik, ideya-estetik ictimai prinsiplərinin və ideallarının sistemli şəkildə elmi-nəzəri təhlili kimi çox qiymətlidir.

Yazıçı bütün yaradıcılığı boyu 300-ə yaxın hekayə qələmə almışdır. Bu hekayələrdə o, 20-ci illərin axırlarında rayondan köçüb Bakıda, Kiçik Qala küçəsi 16 nömrəli evdə yaşadığı vaxtdan ömrünün sonuna qədər həyatının müxtəlif mərhələlərində rast gəldiyi insan xarakterlərinin, üzləşdiyi həyat hadisələrinin, təzadlı və mürəkkəb gerçəkliyin dolğun bədii təsvirini vermişdir.

Bu əsərlərdə zaman və məkan obrazı aydın nəzərə çarpır. Bakı şəhəri və onun sakinləri, şəhər ab-havası, insani münasibətlər, bu münasibətlərdə zamanın tələbindən, obyektiv şəraitdən gələn həm mənfi, həm müsbət olan çalarlar, dünəni bu günə bağlayan həyat sürəti, siyasi-ictimai quruluşun olduğundan daha gözəl və üstün görünmək təşnəsi və cəhdləri özünəməxsus, maraqlı detalları ilə Mir Cəlal nəsrində yüksək bədiiliklə ifadə olunmuşdur. Bu isə bir epoxanın, bir dövrün bədii portreti idi.

Mir Cəlal Firidun bəy Köçərlidən sonra Azərbaycan ədəbiyyatı tarixini yazanlardan biri, professional Azərbaycan ədəbiyyatı nəzəriyyəsinin ilk yaradıcısıdır. O, ədəbiyyat nəzəriyyəsinin əsaslarının və mühüm mərhələlərinin elmi izahını və təsnifatını verən ilk ədəbiyyatşünas alimdir. Mir Cəlalın elmi əsərləri təsviri məzmun daşımır. Onlar dərin, mükəmməl, nəzəri təhlil xarakterlidir, həm də lakonik, aydın və sadə üslubda yazılmışdır. Qəliz izahlar, ağır, pafoslu cümlələr, dolaşıq mülahizələr Mir Cəlal elminə yaddır. Bu isə gözəl bir ədəbi nümunə, sadəlik və müdrikliyin vəhdəti demək idi.

Azərbaycan tarixinin böyük və zirvə şəxsiyyətlərindən biri Mir Cəlal Paşayevin 115 illik yubileyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası yazıçı haqqında fondunda mövcud olan əsərlərinin, haqqında yazılan kitabların, dövrü mətbuatda keçən əsrdən günümüzə qədər haqqında çıxan məqalələrin tammətnli siyahısını, görkəmli şəxslərin şair haqqında səsləndirdikləri qiymətli fikirləri, həmçinin yazıçının bir sıra aforizmlərini bir araya toplayıb oxuculara təqdim edir.

## Mir Cəlalın bədii əsərlərində aforizmlər

Azadlıq verilməz, alınar.

Azadlığı qorumaq – onu fəth etmək qədər müqəddəsidir.

Zəncirləri qırmaq üçün əql gücü də, əl gücü də işlətmək lazımdır.

Yaxşı analıq çətin, lakin çox şərəfli, çox müqəddəs işdir. Ana qəlbi insanın ilk məktəbidir. Məhəbbətin, səmimiyyətin, sədaqətin pozulmaz kitabıdır.

Ən müdhiş fəlakətə düşəndə də ana qəlbi böyükdür!

Qadın qəlbi qapalı bir ağacdır, açarı da qadının özündədir. Bu açarı qəlbdə yanan sevgi fanarı ilə arayıb tapmalı.

Gözəlliyi yalnız görkəmdə, donda, zahirdə axtarmaq olmaz. Zahir insanı aldada bilər. Çox təmtəraqlı libas altında çirkinliklər gizlənir. Çirkin görünən don, görkəmsiz zahir dalında da bəzən gözəl məna, ali fikirlər olur.

Balalarımızın tərbiyəsi, vətənimizin gələcəyi üçün, həqiqət, ədalət naminə hər vasitəyə əl atmaq gərəkdir.

Qoca üçün də, cavan üçün də el qabağında dayanıb cavab verməkdən çətin bir iş olmasın gərək.

Həmişə, hər yerdə, hər kəsə ürəyindəkini deyə bilsən! Bax, bundan böyük xoşbəxtlik yoxdur.

İtən hörməti qapı-qapı gəzib dilənmək olmaz!

Subaylıq – sonsuzluqdur.

Həqiqi sənət xalqdan doğar, xalqa xidmət edər.

Yazı ürəkdən gələn bir səsdir. Ürək isə müqəddəs hisslərin beşiyidir.

Qarıncadan yazanda da sənətkar olmaq hünərdir. Gül, bülbül onsuz da gözəldir. Əsl sənət qarıncanın gözəlliyini kəşf etməlidir.

Ədəbiyyatşünaslıq fikir söyləməkdir.

Gənclik həyat, yenilik, sağlam enerji deməkdir. Bu aləmdən kənarda qalmaq mənən ölmək deməkdir.

Sevgi - insan təbiətinin ən zəruri, ən gözəl və müqəddəs keyfiyyətlərindən olan sevgi hər zaman, hər yerdə sənətin xüsusən şeirin mərkəzi mövzularından olmuşdur. Bu qanuni və təbiidir. Normal insanın qəlbi sevgidən xalis ola bilməz.

Qəlb - bütün böyük, ülvi hisslərin yatağı olan təmiz qəlb məhəbbətin də beşiyidir. Elə bir böyük və ya kiçik ədəbiyyat olmamışdır ki, orda qəlbin həyatı bu və ya başqa dərəcədə əks edilməsin.

Gövhəri qumdan ayırmağı bacarmaq lazımdır, arxivlərin əsiri olmaq yaramaz.

Vallah, bu vəfat eləyən bəzi yazıçıları o qədər tərifləyirlər, adam lap peşman olur ki, niyə mən indiyəcən sağ qalmışam.

Diriykən ölmək kimə lazımdır, qardaş, bir dəfə öləcəyik də, ta sızıldamaq nə üçündür?

Çörək elə şeydir, tülkünü aslan edir, aslanı tülkü.

Kölgədə bitən ağacın kölgəsi olmaz.

Bəzi ulduzlar kiçik olduqları üçün yox, yüksəkdə olduqları üçün görünmürlər.

Heyhat! Qoca dünya bəzən öz gərdişini sərt bir sükut, daş bir ürək, kor bir məntiq, daimi bir amansızlıqla keçirən qoca dünya kimsə ilə hesablaşmır.

Bizim zəmanədə insan insanın cəlladıdır. Kimin ki, əlində ixtiyar var, nə desə doğrudur. Kim ki, məzlumdur, nə desə yalandır.

## Mir Cəlalın əsərlərində atalar sözləri

**Dolanışıq haqqında:**

Kasıblığın üzü qara olsun. Bir yandan bağlayan fələk, bir yandan açır. Kasıbı dəvə üstündə büvə sancar. Çalış ək, biç, aparsın bəy, evin qalsın dəyirman tək. Getdi doğanaq dalınca, ölkəni də qoyub gəldi. Yoxluğun üzü qara olsun. Güzəran, mənsəb cəhənnəmin dibində də olsa, enməyi bacar. Az olsun, yaxşı olsun.

**Birlik, mübarizlik, bacarıq və elm haqqında:**

El gücü, sel gücü. Çörəyi ver çörəkçiyə, bir çörək də artıq ver. Müəllim kəndin yanan çırağıdır. Elm Kitayda olsa, ona çat. Qılıncdan daha kəskin, ulu qüvvət zəkadır. Salavatla donuz dardan çıxmazş Çəkişdikcə itilənəcəksən. İş yiyəsi işdə gərək.

**Dostluq haqqında:**

Dost-yoldaşın nəfəsi də adama bəsdir. Yaxın dost insanın dərdini dağıdar, ömrünü uzadar. Dost var, düşmən var. Əsl dostu qılınc da ayıra bilməz.

**Qadın haqqında:**

Qız ağacı, qoz ağacı, hər yetən bir daş atır. Qız uşağı gündə bir arpa boy atar. Arvadda vəfa, zəhərdə şəfa. Arvad ərinə oxşayar. Qadın qəlbi qapalı bir bağçadır, açar da özündə.

**Xasiyyət haqqında:**

Acılqlı başda ağıl olmaz. Çox yeyənin olsun, çox deyənin olmasın. Çəkişməyən bərkiməz. Ürək geniş olsun.

**Mənfi adətlər haqqında:**

Qanı qanla yumazlar. Oğru elə həmişə oğrudur. Gədə başlıdan bəy olmaz. Dedi-qodu ev yıxar. Yalan yeriməzş Yalan danışanın evinə od düşər. Qorxan gözə çöp düşər. Oğrular gözdən tük çəkirlər. Qorxan canavarın dişi iti olar.

**İgidlik, dözümlülük, dəyanət və ad-san haqqında:**

Dəvə belinə atsan, dünyanın o başına gedib çıxar. Yarımçıq yaşamaqdansa igid kimi ölmək yaxşıdır. İgid nəvələr böyüdənin ürəyi dağ olar. İtən hörməti qapı-qapı gəzib dilənmək olmaz. Əzməsən, əziləcəksən, ayaqlamasan, ayaqlanacaqsan. Çıxmayan cana ümid çoxdur. Atın gücünə

baxıb, yük çatarlar. İtə ataram, yada satmaram. Ölmək ölməkdir, xırıldamaq nə deməkdir. Qisas qiyamətə qalmaz.

**Öyüd, nəsihət haqqında:**

Böyüklərin nəsihəti dərmandır, acı olar, nəticəsi şirin olar. Həqiqi varis atasından qalana sahib durar. Hər adamın üzünə irişmə, hər parıldayana işıq, hər parlayana qızıl demə. Sonraki peşmançılıq fayda verməz. Gedənə yaxşı yol deyərlərş Qanmazın ağası olmaqdansa, qananın qulu ol. Öz-özünə eləyəni el yığlsa, eləyə bilməz.

**Tale, yığval, inam haqqında:**

Sən saydığını say, gör fələk nə sayır. Düşəri düşməzi olar. Yazıya pozu yoxdur.

**Axmaqlıq, xəbərçilik, tərslik və səfehlik haqqında:**

Daş atmaq polada kar etməz. Eşşək nə bilir zəfəran nədir. Əbləh köpək qaysabadan pay umar. Keçinin qoturu bulağın gözündən su içər. Aranı dağa, dağı arana daşıyır. Gülməli şeyə gülərlər.

**Əzəmət, diribaşlıq və gözəllik haqqında**:

İt hürər karvan keçər. Yel qayadan nə aparar. Gözəllik ondur, doqquzu dondur.

**Səxavət və düzlük haqqında:**

Xalqın gözü tərəzidir. Balığı at dəryaya, balıq bilməz, xalıq bilər. İnsaf dinin yarısıdır. Gərək təmizlik içindən ola. Aşıq sözün haqqın deyər.

**Hakimiyyət və var-dövlət haqqında:**

Adın nədir dərviş, pul ilə aşır hər iş. Milçək şirəyə yığılar. Adamı adam edən paradır, parasız insanın üzü qaradır. Pul ağ günü qara, qara günü ağ edər. Fələyin dəyirmanı da pul ilə işləyir. Kimin ki əlində ixtiyar var, nə desə, doğrudur, kim ki məzlumdur, nə desə, yalandır. Qaz vurub, qazan doldurur. Həm ziyarət, həm ticarət.

## Görkəmli şəxsiyyətlər Mir Cəlal haqqında

Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanımızda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatımızdan keçir. Bəzi əsərlər var ki, onlar açıqaçığına xalqımıza milli dirçəliş, oyanış hissiyyatlarını çatdırıbdır: Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın və başqalarının əsərləri. Amma digər əsərlər isə dolayısı ilə, ayrı-ayrı fikirlərlə millətimizə vətəni sevmək, vətənə sadiq olmaq, Azərbaycanı sevmək, azərbaycanlı olmaq hissiyyatlarını yaradıbdır.

Bu, bizim şairlərimizin, yazıçılarımızın əsərlərinin hamısından keçibdir. Klassik adlandırdığımız Səməd Vurğunun, Rəsul Rzanın, Süleyman Rüstəmin, Məmməd Rahimin, Osman Sarıvəllinin, Süleyman Rəhimovun, Mehdi Hüseynin, Əbülhəsənin, Əli Vəliyevin, Mir Cəlalın, İlyas Əfəndiyevin, Mirvarid Dilbazinin də əsərlərindən yan keçməyibdir...

***Heydər Əliyev***

XX əsir milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı Mir Cəlal Paşayevin Azərbaycan ədəbiyyatının inkişafı və onun məzmunca zənginləşməsində mühüm rol oynamışdır.Xalq yaradıcılığı ilə klassik bədii irsin qabaqcıl ənənələrinin vəhdətini yeni formada yaşadan və ədəbiyyata həyat gətirmiş yazıçı kimi tanınan Mir Cəlal Paşayev eyni zamanda görkəmli tədqiqatçı alim olmuşdur.

***İlham Əliyev***

Onun əsərləri bütöv bir dövrün mənzərəsini yaradır. O, böyük pedaqoq kimi Azərbaycan cəmiyyəti üçün minlərlə açıq fikirli tələbə yetişdirmişdir.

***Mehriban Əliyeva***

Mir Cəlal müəllim XX əsr Azərbaycan nəsrinin yükünü çiyinlərində daşıyan görkəmli yazıçılarımızdan biridir.

***

Mir Cəlal təbiət etibarilə necə sadə idisə, danışığı da elmi və bədii təhkiyyəsi də eləcə idi və əsas məsələ burasındadır ki, onun həm şəxsiyyətində, həm də yaradıcılığındakı o sadəlik qətiyyən primitvlik yox, müdrikliyin nəticəsi idi.

***Elçin***

Müasir Azərbaycan ədəbiyyatının görkəmli təməlçilərindən olan Mir Cəlalın zəngin irsi məhz böyük həqiqətlərin sonsuz səmimiyyətlə bədii təcəssümünə əsaslanır. Təxminən əlli illik bədii yaradıcılığında Mir Cəlal öz oxucuları ilə həmişə səmimi və obyektiv söhbət aparmışdər; həyat

materialını hər cür "kosmetik əməliyyatlardan" uzaq, bütün həqiqətləri ilə, gözəllik və faciələri ilə, gülməli və ağlamalı tərəfləri ilə canlandırmağı bacarmışdır. Buna görə də sovet dövründə yazılmış əsərləri bu gün də eyni maraq və məhəbbətlə qarşılanır, köhnəlmir və yəqin ki, heç vaxt da köhnəlməyəcək. Onların hər biri yazıldığı zamanın siyasi-ictimai və psixoloji-mənəvi səciyyəviliklərini dəqiqliklə, müfəssəlliklə təcəssüm etdirdiyindən, öz tarixinin bədii abidəsi, yadigarı kimi əbədiyaşardır.

***

Mir Cəlal deyəndə, hər şeydən əvvəl, gözəl romanlar və hekayələr müəllifi olan ədib təsəvvürümüzdə canlanmış olur. Çünki o, xalqımızın bədii yaddaşında ictimai tariximizin, xalq taleyinin mühüm problemlərini təhlil edən, həyat və tarix haqqında xalqı ilə ürəkdən, səmimi dərdləşə bilən, onunla sevinc və dərd şəriki olan ustad sənətkar kimi silinməz izlər buraxmışdır. "Dirilən adam", "Bir gəncin manifesti", "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər", "Yolumuz hayanadır" kimi romanları, 292 hekayəsi və başqa janrlarda yazılmış bir çox əsəri həqiqi sənətkarın öz xalqı ilə əsl həsb-halının, dərdləşməsinin bədii nümunələridir!

***Nərgiz Paşayeva***

Mir Cəlalın yaradıcılığının şahidi olmaq, əksər əsərlərinin ilk oxucusu olmaq taleyin mənə bəxş etdiyi xoşbəxtlik idi.

***Hafiz Paşayev***

Mİr Cəlal yaradıcılığının ən üstün cəhətlərindən biri də onun təmiz, şaqraq və büllur dili idi. Onun dili, xalq danışıq tərzinə uyğun, son dərəcə canlı, təbii ifadələrlə zəngin və bədii dildir.

***Bəxtiyar Vahabzadə***

Mir Cəlal üçün ədəbiyyat hava və su idi. Həmişə, hər yerdə, bütün söhbətlərində ədəbiyyatdan, sənətdən, bunların elmi təhlilindən uzağa getməzdi. Nizami, Füzuli, Mirzə Cəlil, Sabir, Cavid, Səməd Vurğun kimi sənətkarlar haqqında danışmaqdan usanmaz, doymaq bilməzdi. Ədəbiyyat tarixi yazılanların tarixi deyil, oxunanların tarixidir, deyərdi. Və öz sözləri ilə desək, "kiflənmiş ədəbiyyatı" üzə çıxarıb mübaliğəli şəkildə tərif edənləri sevməzdi. Ədəbiyyatda ən çox qiymətləndirdiyi həqiqət, müasirlik, xəlqilik, sadəlik və yığcamlıq kimi məziyyətlər, aydın dil və üslub idi. Bədii əsərlərindən ən çox istədiyi övladları qədər sevdiyi "Bir gəncin manifesti" romanından tez-tez söhbət açsa da, bunu da yazıçılığını gözə soxmaq üçün eləmirdi, roman janrında yığcamlığa əməl etmək baxımından nümunə göstərirdi... Bir də vaxtilə "Dirilən adam" romanının haqsız tənqid olunduğunu yada salardı. Başqa heç bir əsərindən söhbət salmaz, yazıçı olduğunu, nə kimi əsərlər yazdığını dilinə belə gətirməzdi. Füzuli, Mirzə Cəlil, Sabir yaradıcılığından bəhs edən elmi əsərləri üzərində cilalama işini ardıcıl davam etdirərdi. "Azərbaycanda ədəbi məktəblər" adlı doktorluq işini kitab halında görmək ən böyük arzularından idi.

***

Ədəbiyyatdan canlı həyat qədər zövq alan, şeir və sənətdən danışmaqdan əsla doymaq bilməyən, bədii əsərlərin, klassik irsin nəşri və ardıcıl təbliğini bir an belə unutmayan həssas, tələbkar, qayğıkeş bir vətəndaş olan Mir Cəlal gənc ədəbiyyatşünaslara ədəbiyyatımızın və dilimizin qeyrətini çəkməyi həmişə tövsiyə edərdi.

*Firidun Hüseynov*

“Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz tərcümeyi-halının bir hissəsi kimi görünür. Canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir. Kitabı oxuyub örtdükdən sonra adama elə gəlir ki, özünün dünənki həyatını, həyəcan və sevinclərini sənə nağıl edən bir adamla bir neçə saat maraqlı söhbət etmisən”. Bu sitatdır. Sizin yaradıcılığınızdakı dərin səmimiyyətdən bəhs edən onlarca tənqidçi və ədəbiyyatşünasdan tək birinin qeydi.

Mir Cəlalın əsərlərində əvvəldən axıra qədər kəndə bağlı olan ağsaçlı ata-anaların, xala və dayıların surətləri əsas yer tutur. Yazıçı öz taleyini onların taleyindən ayırmır, öz qəlbində onların ürəyinin, onların ürəyində öz ürəyinin döyüntüsünü hiss edir.

***İsa Hüseynov***

Mir Cəlalın insanlara, iş yoldaşlarına, ümumən onunla az və ya çox dərəcədə əlaqədar olan adamlara aydın, açıq münasibəti var idi. Adamlara şəxsi keyfiyyətinə, savadına, intizamına tapşırılan işi yerinə yetirmək qabiliyyətinə görə münasibət bəsləyirdi.

***Yusif Seyidov***

Şeirdən, sənətdən danışanda, həmişə ədəbiyyatın bəzi problemlərinə də toxunar, nəzəri məsələləri çox sadə bir tərzdə izah edərdi. Çox vaxt bizə bu fikri aşılamağı çalışardı ki, ədəbiyyata təsadüfi gəlib çıxanlar gec-tez səhfini anlayıb uzaqlaşacaq və sevdiyi sahəni özü axtarıb tapacaqdır.

***Əmirxan Xəlilov***

Mir Cəlalın “Füzuli sənətkarlığı” monoqrafiyası Füzuli ədəbi irsini öyrənmək, mənimsəmək və dərk etmək üçün elmi açardır.

***Qara Namazov***

Mir Cəlal görkəmli ALİM idi. Alim sözünü böyük hərflərlə nəzərə çarpdırmağımın və ondan əvvəl görkəmli təyinini işlətməyimin səbəbi var. Mir Cəlal yazıçı olmasaydı belə, biz ondan elmdə müəyyən iz buraxan görkəmli bir alim kimi söz açardıq.

***Vaqif Yusifli***

Professor Mir Cəlal Paşayev geniş yaradıcılıq fəaliyyətinə malik olan bir şəxsiyyət idi: O, görkəmli yazıçı, tanınmış nəzəriyyəçi filoloq alim, nümunəvi müəllim kimi xatirələrdə əbədi yaşayır. Mir Cəlal müəllim nəzəri filoloq olmaqla yanaşı, çox gözəl müəllim kimi tanınırdı. O, təkcə bilik vermir, eyni zamanda hərəkətləri, adamlara münasibəti ilə tərbiyə edirdi

*Şəmistan Mikayilov*

“Məktəblərdə, mütləq “İnsanlıq” bir predmet kimi təlim olunmalıdır. İnsanlıq və insanlıq fəlsəfəsi bu yazıçıdan ötrü həyat idealına çevrilmişdi. İnsanlıq və insanlıq fəlsəfəsi onun əsərlərində həmişə qırmızı bir xətlə keçirdi.

***Qılman İlkin***

Oxucunun etimadını, xalqın hörmətini qazanmaq o qədər də asan iş deyil. Xalq işində yüksək məsuliyyət hissi, düzlük, doğruluq, çörəyi halal, əməyə bağlılıq, sənətin mücahidi ola bilmək, böyüyə hörmət, kiçiyə mərhəmət, ailəyə sədaqətli olmaq kimi yüksək insani keyfiyyətlərlə zəngin olan gənc qələm sahibi Mir Cəlal, illər keçdikcə sözünə, nəsihətinə ehtiyac duyulan ağsaqqala çevrildi.

***Mirvarid Dilbazi***

Mir Cəlalın qəhrəmanları olduqca təbii, inandırıcı, koloritli bir şəkildə danışırlar... Mir Cəlal peyzajı da canlı və təbii verir. Peyzaj əsərdəki hadisələrlə o dərəcədə bağlıdır ki, o, əsərin ayrılmaz, üzvi bir parçasına çevrilir.

***Məmməd Arif***

Mir Cəlal sakit və təmkinli bir yazıçıdır; o boş və artıq gurultudan, təbiiliyi poza biləcək bir cizgi belə işlətməkdən çəkinən yazıçıdır.

***Məmməd Cəfər***

Mir Cəlal müəllim həqiqətən peyğəmbər təbiətli insan idi. Xeyirxahlıq onun canında, qanındaydı. Mir Cəlal müəllim insanpərvər idi. İstedadlı adamların qədrini bilirdi.

***Nəriman Həsənzadə***

Mir Cəlal müəllim hər şeydən əvvəl çox orijinal və qüdrətli bir pedaqoq idi. O, təbiəti, davranışı və əməlləri ilə tələblərinə ibrətli, təsirli örnək idi. Aspirant olanda da, müəllim kimi bir yerdə işləyəndə də hər bir fikrimizi, hərəkətimizi yerindəcə “redaktə” etməyi unutmazdı. Həyata, yaradıcılığa böyük amallarla, müqəddəs ideyalarla baxardı və tələbələrinə də bunu təlqin edərdi.

***Təhsin Mütəllimov***

Mir Cəlal müəllim dünyasını çox tez dəyişdi. Ancaq o bir ömürdə neçə ömür yaşadı: gözəl bir alim, qüdrətli sənətkar və ən başlıcası, ləyaqətli və heç zaman unudulmayan bir insan ömrü...

***Balaş Azəroğlu***

Bəli, mən onun çoxsaylı əsərlərini, bədii və elmi araşdırmalarını oxuduqca, onun manifestini görürəm. Hörmətli müəllimlərim və dostlarım, professorlar Teymur Əhmədovun, Qara Namazovun, Vaqif Vəliyevin, mərhum Firidun Hüseynovun xatirələri mənim ürəyimdəki müəllim heykəlini, sadə insan obrazını daha da nurlandırıb. Bu nurlu obraz – Mir Cəlal müəllimdir. Dodağından təbəssüm düşməyən hörmətli Mir Cəlal müəllim. Onun yazdıqları və bizə dedikləri isə mənalı bir ömrün manifestidir.

***İsmayıl Vəliyev***

Elmi ədəbiyyata bələd olduqca Mir Cəlal müəllimin bir alim kimi dərin zəkasına, analitik təfəkkürünə, erudisiyasına, zəhmətkeşliyinə heyran olurdum. O, təkcə istedadlı müəllim, yazıçı deyilmiş, həm də mütəfəkkir ədəbiyyatşünas-alim imiş. Bunu mən onun ədəbi məktəblər haqqında yazdığı monumental tədqiqat əsərini, Məhəmməd Füzuli irsi, Cəlil Məmmədquluzadə realizmi, Nəriman Nərimanovun bədii yaradıcılığı və s. elmi araşdırmalarını oxuduqca, sanki kəşf etdim.

***Teymur Əhmədov***

Biz – o uzaq illərin tələbələri hərdən görüşüb, bir yerə yığışanda istər-istəməz müəllimlərimizdən söz salır, hörmət və ehtiramla onları xatırlayarıq. Bu sırada Mir Cəlal müəllimin ayrıca yeri, istək mərtəbəsi var. O, öz adını bizim hər birimizin qəlbinə nurlu hərflərlə nəqş edib. Unudulmaz müəllimimizin, gözəl sənətkarlarımızın işıqlı obrazı xəyallarımızdan gələcək illərə boylanır. Fikrimizdə isə hamımızın eyni vurğu ilə dilə gətirdiyimiz sözlər qanadlanır: “Ürəyinə ürək çatmazdı, bir işıq idi Mir Cəlal müəllim!.”

***Nahid Hacızadə***

Mir Cəlal müəllim böyük yazıçı, böyük alim, gözəl insan kimi Azərbaycan ədəbiyyatı və mədəniyyəti üçün çox böyük işlər görmüş, XX əsr ədəbiyyatşünaslığın məktəbini yaratmışdır.

***Abdulla Abbasov***

## Mir Cəlal görkəmli şəxslər haqqında

Füzuli yalnız Azərbaycan xalqının, yalnız öz əsrinin deyil, bütün bəşəriyyətin, renesans dövrünün, böyük sənətin böyük oğludur. Əsrlərdir ki, mədəniyyət dünyasında şeir, sənət anlaşılan, sevilən hər bir ölkədə və cəmiyyətdə bu böyük dahinin adı iftixarla yad edilir və əbədi olaraq yad ediləcəkdir.

Füzuli sənətinin qüdrətini, miqyasını, məziyyətlərini təhlil və təyin etmək bir nəfərin, bir elmi məktəbin, hətta bəlkə də bir elmi nəslin işi deyildir. Bu böyük və şərəfli vəzifə ədəbiyyat, sənət, dil, fəlsəfə elmlərinin qarşısında durmaqda və həllini gözləməkdədir.

Azərbaycanı şeirə Səməd Vurğun gətirdi. Səməd əlli yaşında dünyada tanınan şair oldu, bir zaman onu bəyənməyən, şeirlərinə dodaq büzüb, eh, nədir ki, mən ondan yaxşısını yazacağam, deyən lovğalar elə yerində saya-saya qaldılar.

***

Səməd Vurğun sağlığında Azərbaycan şeirini bütün dünyada yayan canlı tribuna olmuşdur. O, sözün əsl mənasında vətəninin, elinin, üstündə boya-başa çatdığı torpağın vurğunu idi. İndiyədək ədəbiyyatımız tarixində onun böyük ustalıqla vətənimizin poetik xəritəsini çəkən, canlı, əlvan, rəngarəng boyalarla bəzədilmiş ölməz sənət tablosunu xatırladan "Azərbaycan" şeiri səviyyəsində ikinci bir şeir yazılmayıb və bəlkə gələcəkdə də yazılmayacaq. Adamların Azərbaycan vətənimdir sözlərini deməkdən çəkindiyi bir vaxtda "El bilir ki, sən mənimsən, yurdum, yuvam, məskənimsən" hökmünü ancaq S.Vurğun kimi böyük vətənpərvər, mərd, mübariz bir şəxsiyyət verə bilərdi.

Səməd Vurğun heç vaxt kağız korlamayıb. Onun şeirləri qələmindən çıxan kimi dərhal bütün ölkəyə yayılırdı, dillərdə əzbərə çevrilirdi.

Mirzə Cəlil məzlum Şərqin böyük ədibidir, "Anamın kitabı" həqiqət kitabıdır.

Mirzə Cəlil kimi o zaman xalqa yaxın olan ədib tapmaq çətindir, amma onun qədər asan, sadə, təbii yazan da yox idi. Bəs bu cavanlar niyə ədəbiyyatımızı, mədəniyyətimizi pis öyrənirlər, görüb-götürmürlər? Bəzi cavan alimlərin də əsərini oxuyanda, ya da özünə qulaq asanda, görürsən, sözündən bu çıxır ki, elə hər şey məndən başlayır. A bala bəs səndən əvvəl yazb-pozanlar harda qaldı?

Yarım əsirlik kəskin mübarizədən sonra realizm – həyat üslubu qalib gəldi. Axundovun başladığı şərəfli işi davam və inkişaf etdirən böyük ədiblər yarandı. Bunların içində Ə.Haqverdiyev və Mirzə Cəlilin (Molla Nəsrəddinin) mövqeyini xüsusi qeyd etmək lazımdır. Bizim yeni nəsrimizdə realizm üslubu çox haqlı olaraq, bu iki demokratik ədibin adı ilə adlandırılır.

Dildə sadəlik, xəlqilik, danışıq dilinin bütün gözəlliklərini ədəbi dilə gətirmək, novellanı şirin, rəngarəng, duzlu maneralarla yazmaq, hər bir obrazın özünə münasib qısa dialoq vermək, izahdan qaçmaq - ədiblərin bədii xüsusiyyətidir. Haqverdiyevin dialoqlarındakı təbiilik, hazırcavablıq, qısalıq, formaca müxtəliflik sovet nəsrləri üçün nümunədir.

İsmayıl bəy Qutqaşınlının 1835-ci ildə Varşavada çap olunan fransızca hekayəsi, bədii nəsr tariximizdə Avropa səpgisində yazılmış ilk hekayə sayıla bilər.Bu hekayədə diqqəti cəlb edən cəhət, Avropa romantik stili ilə Şərq nağıl və əfsanələrinə məxsus olan bakirliyin, spesifakanın, nəzakət qaydaları təsvirinin qəribə birliyidir. Tərənnüm olunan məhəbbətin təmizliyi, müqəddəsliyi ilə yanaşı, real zəminəsi, həqiqi imkanları, məişət ilə şərtlənməsi verilir.

O, keçən əsrin ortalarında feodal-patriarxal, müstəmləkə Azərbaycanının zülmətli üfüqlərində öz ölməz əsərləri və zəngin fikirlərilə bir günəş kimi parladı. Axundov, Azərbaycan xalqının və bütün məzlum Şərqin ingilis-amerikan imperializmi əsarətindən, qurtarması, müsəlman fanatizmindən, Şərq ətalətindən xilas olub mədəniyyət, nicat və inkişaf yoluna düşməsi üçün böyük rus xalqının, qabaqcıl rus mədəniyyətinin həlledici rolunu hələ o zaman görüb göstərmişdir.

Süleyman Sani xalqımızı, həyat və məişətimizi çox gözəl bilirdi. Yalnız ictimai hadisələrdə deyil, təbiət səhnələrində də tarixi görür, xalqdan, məişətdən bir əlamət duyurdu. Süleyman Sani yaradıcılığında hiss, həyəcan üstündür, yəni ədibin çırpınan ürəyini, hadisə boyunca kədərini, sevincini, nifrətini və ya qəzəbini görürük. O, yalnız əli ilə deyil, həm də çırpınan qəlbilə yazırdı.

Azərbaycan teatr tarixində, sovet ədəbiyyatı və mədəniyyəti tarixində mühüm bir hadisəolan və Süleyman Saninin şəxsi iştirakı ilə yaranan və inqilabi təbliğat yolunda çox faydalı, tərbiyəvi iş görən “Tənqid və təbliğ” teatrı ədib üçün böyük yaradıcılıq tələbləri qoydu və imkanlar açdı.

Nəriman Nərimanov, dövrünün yorulmaq bilməyən, xalqına, vətəninə sədaqət və səmimiyyətlə xidmət edən fədəkar mücahidi idi. Onun əsərləri XX əsr realist demokrat ədəbiyyatımızın yaxşı nümunələri kimi həmişə yaşayacaqdır.

Tolstoyun sənətkar dühasının parlaq məhsulu və eləcə də bütün sənət xəzinəsinin ən gözəl əsərlərindən biri məşhur xalq epopeyası “Hərb və sülh” romanıdır. İndiyə qədər ədəbiyyatda misli görünməmiş bu romanda dahi ədib öz nəzəri görüşlərinə zidd gedərək bədii lövhələrlə göstərir ki, tarixi “seçilmişlər” yox, məhz xalq yaradır.

Mehdi ədəbiyyatın qeyrətini çəkəndir. Mehdinin əsərləri hələ otuzuncu illərdən yayılmağa, diqqəti cəlb etməyə başlamışdı. Onun bir sıra həcmcə xırda, mövzu etibarilə əhəmiyyətli, məzmunca zəngin hekayələrindən istedadlı gənc bir qələm sahibinin səsi gəlirdi. Mən deyərdim ki, bu üslub hər kəsdən əvvəl Mehdinin öz orijinal üslubudur. Həm zəngin klassik ənənələrimizin, həm sürətlə inkişaf edən indiki ədəbiyyatımızın, həm də inqilabi mübarizə ilə zəngin müasir, canlı həyatımızın

üzvi vəhdəti zəminəsində yaranan, sosialist realizmi istiqamətində inkişaf edən, özünəməxsus keyfiyyətlərlə seçilən bir üslubdur.

Yaradıcılıqda realist olmaq istəyənlər heç bir zaman axtarış və tədqiqatdan yorulmamalıdırlar. Yalnız istedad ilə kifayətlənənlər, öyünənlər yanılırlar. Həyat həqiqətinin dürüst inikası ancaq uzun, inadlı zəhmətin, bir məktəbli kimi ehtiraslı öyrənmə prosesinin nəticəsində əldə edilir.

Seyid Hüseyn də, Süleyman Sani də, Nəriman Nərimanov da müəllim-ədib, yaxud ədib-müəllim olmuşlar. Xüsusilə, məktəbi, tərbiyə, təlim işini çox sevirmiş, ömürlərinin mühüm hissəsini buna sərf etmiş, bədii əsərlərində də bu aləmi məhəbbət, məharətlə təsvir etmişlər.

Haqverdiyev yeriyən Azərbaycançıdır.

Bir institutun görə bilmədiyi işi Firidunbəy Köçərli görmüşdür.

Müşfiq nakam şairdir.

Böyük sənətkarlar Nizamidi, Füzulidi, Sabirdi, bizim kimilər isə sadəcə yazardı, söz fəhləsidi.

# Şəkillərdə
























**Mir Cəlal Paşayevin 65 illik yubileyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında 42 №li məktəbin 7 -8-ci sinif şagirdləri ilə görüşü.**









## Kitabları

Ədəbi tənqid (1931-1974). - Bakı : Zərdabi-Nəşr, 2018. - 520 s.

İki rəssam : Məzmunu Nizaminin "İsgəndərnamə" poemasından alınmışdır. - Bakı : Renessans-A, 2017. - 12 s.

Publisistika (1926-1977). - Bakı : Zərdabi-Nəşr, 2018. - 416 s.

Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2005. - 384 s.

Yuxu və külək. - Bakı : Bərpanəşr, 2016. - 12 s.

## Əsərləri kitablarda

Bostan oğrusu // Azərbaycan nəsri antologiyası. 5 cilddə. C.3. – Bakı :Şərq-Qərb, 2006. – S. 207-215.

**Əsgərli F.** Badam ağacları// Azərbaycan Uşaq Ədəbiyyatı. – Bakı : Pedoqoji Universitetinin nəşri, 2012. – S. 258-275.

**Əsgərli F.** Qaymaq // Azərbaycan Uşaq Ədəbiyyatı. – Bakı : Pedoqoji Universitetinin nəşri, 2012. – S. 252-258.

Mənim də haqqım var // Külək qarı səpələr. – Bakı : "Poeziya günü" nəşrlər evi, 2010. – S.193-199.

Təzə toyun nəzakət qaydaları // Azərbaycan nəsri antologiyası. 5 cilddə. C.3. – Bakı :Şərq-Qərb, 2006. – S. 199-207.

## Haqqında kitablar

**İsmayılov Y.** Mir Cəlalın Yaradıcılığı. - Bakı : Elm, 2010. - 292 s.

**Hidayət.** Mir Cəlal dünyasından sətirlər. - Bakı : Əbilov, Zeynalov və oğulları, 2006. - 84 s.

**Əhmədov T.** Mir Cəlal: Həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyəti : 2 cilddə

I cild : Ədəbi - nəzəri düşüncələr. - Bakı : Nurlar, 2014. - 348 s.

II cild : Fotosənədlər, əlyazmalar, epistolyar irs. - Bakı : Nurlan, 2014. - 380 s.

Mir Cəlal : Müasirlərinin xatirələrində və yaradıcılığından örnəklər. - Bakı : Azərbaycan Ensiklopediyası NPB, 1998. - 147 s.

**Cəfərov N.** Mir Cəlalın milli idealları. - Bakı : Zərdabi LTD MMC, 2018. - 112 s.

Mir Cəlalın bədii əsərlərinin linqvopoetik xüsusiyyətləri : 2 cilddə

I cild. – Bakı : ADPU-nəşriyyatı, 2018. - 430 s.

II cild. – Bakı : ADPU-nəşriyyatı, 2018. – 384 0s.

**Hüseynov Ə.** Mir Cəlalın bədii nəsri. – Bakı : "Elm və Təhsil", 2011. – 196 s.

**Eminov A.** Mir Cəlalın poetikası. – Bakı : "Araz"nəşsriyyatı, 2011. – 352 s.

## Haqqında kitablarda

**Əlioğlu M.** Bir gəncin manifesti // Darıxan adamlar. 2 cilddə. C.1. – Bakı : Təhsil, 2009. – S. 185-195.

**Əsgərli F.** Mir Cəlal Paşayev (1908-1978) // Azərbaycan Uşaq Ədəbiyyatı. – Bakı : Pedoqoji Universitetinin nəşri, 2012. – S. 251.

**Həsənzadə N.** Mir Cəlal misal çəkərdi: şeir // Seçilmiş əsərləri. – Bakı : Şərq-Qərb, 2004. – S. 163.

Mir Cəlal (1908-1978) // Müasir Azərbaycan Ədəbiyyatı. – Bakı, 2007. – S. 287-296.

**Muğanna İ.** Mir Cəlal : Yubiley məktubu // Seçilmiş əsərləri. 6 cilddə. C.2. – Bakı : Avrasiya Press, 2009. – S. 420-423.

**Mustafayeva X.** Mir Cəlal Paşayev (1908-1978) // Azərbaycan Uşaq Ədəbiyyatı. – Bakı : Elm, 2011. – S. 232-234.

**Mustafayeva R.** Mir Cəlal Paşayevin hekayələrində tərbiyə məsələləri // Son 20 ildə çap olunanlardan nümunələr. – Bakı : Nərgiz nəşriyyatı, 2011. – S. 85-91.

**Namazov Q.** Mir Cəlal (1908-1978) // Azərbaycan Uşaq Ədəbiyyatı. – Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. – S. 248-254.

**Süleymanlı Ş.** Mir Cəlal Paşayev (1908-1978) // Azərbaycan Ədəbiyyatı Ensiklopediyası. C.1. – Bakı : Nağıl Evi, 2008. – S. 345-346.

## Haqqında dövri mətbuatda

**Abbaslı T.** Böyük sənət manifestli : çağlar həyat eşqli, ədəb-irfan yollu, Vətən-Xalq hallı bir pir İnsan... // Mədəniyyət. - 2016. - 27 aprel. - № 32. - S. 13.

**Abdullayev C.** Bir ədibin manifesti // Azərbaycan gəncləri. – 1988. – 26 aprel. – S. 4.

**Abdullayeva A.** Zəhmətdən kənar səadət yoxdur // Azərbaycan pioneri. – 1988. – 27 aprel. – S.3.

**Abdullayeva F.** Filosof, alim, yazıçı və müəllim... : Mir Cəlal - 100 // Mədəniyyət. - 2008. - 12 aprel. - S. 3.

**Abdullayeva F.** Gədəbəydə xatirə muzeyi yaradılır : Mir Cəlal Paşayev - 100 // Mədəniyyət. - 2008. - 10 aprel. - S. 5.

**Abdullayeva F.** Müəllimlər müəllimi... // Mədəniyyət. – 2008. – 26 fevral. – S. 3.

**Ağayeva G.** Bir ziyalı ömrünün manifesti... : Mir Cəlal Paşayev - 105 // Xalq qəzeti. - 2013. - 26 aprel. - № 88. - S. 19.

**Akimova E.** Milli düşüncə tariximizdə Mir Cəlal // Ədəbiyyat qəzeti. - 2021. - 25 sentyabr. - № 38. - S. 8-9.

**Akimova E.** Mir Cəlal - dəyişən dəyərlər müstəvisində : Ədəbi kimliyi, elmi-nəzəri düşüncəsinin miqyası... // Xalq qəzeti. - 2023. - 26 aprel. - № 84. - S. 10.

**Alışanlı Ş.** Ədəb-nəzəri fikrimizin görkəmli söz sahibi : Mir Cəlal Paşayev haqqında // Azərbaycan. - 2014. - 26 aprel. - № 85. - S. 6.

**Alişanlı Ş.** Görkəmli ədəbiyyat nəzəriyyəçisi : Mir Cəlal Paşayev haqqında // Respublika. - 2008. - 20 may. - 21 may. - S.5. - S. 10.

**Anar.** Böyük ömür yolu və kiçik bir hekayə haqqında qeydlər : Mir Cəlal - 100 / Anar // Ədəbiyyat qəzeti. - 2008. - 25 aprel. - S. 3.

**Arif H.** Müəllimə-sənətkara : şeir // Ədəbiyyat qəzeti. - 2021. - 11 dekabr. - № 49. - S. 17.

**Arif M.** Ədibin rəngləri // Ulduz. – 1968. - № 4. – S. 8-10.

**Azalp A.** Əsrlərin romanı-nəsillərin manifesti // Respublika. – 2015. – 8 oktyabr. - № 218. – S. 6, 7.

**Babayev N.** Görkəmli alim, nəcib müəllim // Bakı. – 1988. – 26 aprel. – S. 3.

**Babayev N.** Ürəklə yazanda // Sovet kəndi. – 1978. – 6 may.

**Babayev N.** Xatırlayıram // Ədəbiyyat və incəsənət. – 1983. – 22 aprel. – S. 7.

**Bağırlı A.** Ədəbiyyatımızın Mir Cəlal zirvəsi // Azərbaycan. - 2022. - 27 aprel. - № 87. - S. 7.

**Bayramova Z.** Böyük yazıçı ömrü - Mir Cəlal Paşayev // Səs. - 2023. - 26 aprel. - № 70. - S. 4.

**Bayramova Z.** Milyonlarla insanın məhəbbətini qazanmış Mir Cəlal Paşayev // Səs. - 2022. - 29 sentyabr. - № 177. - S. 3.

**Bayramova Z.** Mir Cəlal Paşayevin anadan olmasından 112 il ötür / Z. Bayramova // Səs. - 2020. - 25 aprel. - № 69. - S. 6.

**Bəkirova A.** Mir Cəlalın əsərlərində milli psixologiya məsələləri // Təhsil problemləri. - 2008. - 11-20 may. - № 27-28. - S. 6-7.

Bir ömürdə üç ömür yaşamış insan : ədəbiyyatşünas alim, yazıçı, müəllim Mir Cəlal // Xalq qəzeti. - 2008. - 23 aprel. - S. 5.

Bir ziyalı ömrünün manifesti... : Aprelin 26-da böyük pedaqoq, alim, istedadlı yazıçı, xeyirxah insan, əsl vətəndaş Mir Cəlal Paşayevin anadan olmasından 106 il ötür // Yeni Azərbaycan. - 2014. - 26 aprel. - № 72. - S. 5.

Bir ziyalı ömrünün manifesti... : aprelin 26-da böyük pedaqoq, alim, istedadlı yazıçı, xeyirxah insan, əsl vətəndaş Mir Cəlal Paşayevin anadan olmasından 105 il ötür // Respublika. - 2013. - 26 aprel. - № 87. - S. 14.

Bir ziyalı ömrünün manifesti... : aprelin 26-da böyük pedaqoq, alim, istedadlı yazıçı, xeyirxah insan, əsl vətəndaş Mir Cəlal Paşayevin anadan olmasından 105 il ötür // Yeni Azərbaycan. - 2013. - 26 aprel. - № 73. - S. 13.

Böyük ədib, alim və pedaqoq : Mir Cəlal haqqında deyimlər // Ədəbiyyat qəzeti. - 2010. - 24 sentyabr. - N 38. - S. 1.

Böyük yazıçı və alim, görkəmli pedaqoq Mir Cəlal Paşayevin 100 illik yubleyinə həsr olunmuş elmi konfrans // Xalq qəzeti. - 2008. - 26 aprel. - S. 3. ; Azərbaycan müəllimi. - 2008. - 2 may. - S. 4. ; Ədəbiyyat qəzeti. - 2008. - 2 may. - S. 1,3.

Böyük yazıçı, alim və pedaqoq : Mir Cəlal Paşayevin anadan olmasından 113 il ötür // İki sahil. - 2021. - 27 aprel. - № 73. - S. 10.

Böyük yazıçı, alim və pedoqoq Mir Cəlal Paşayev hər bir azərbaycanlının qəlbində özünə əlçatmazlıq heykəli ucaltmışdır // Respublika. - 2011. - 29 sentyabr. - S. 4.

**Cəfər M.** Yazıçı-tərbiyəçi // Bakı. – 1968. – 17 may. – S. 3.

"Dirilən adam"ın müasirliyi: Mir Cəlalın məşhur romanı səhnədə // Xalq qəzeti. – 2006. – 11 aprel. – S. 7.

**Elcanlı S.** Üç zirvənin fatehi : Mir Cəlal-100 // Xalq qəzeti. - 2008. - 19 oktyabr. - S. 5.

**Elçin.** Sadəlik və müdriklik : Mir Cəlal Paşayev haqqında // Ədəbiyyat qəzeti. - 2005. - 25 noyabr. - S.1.

**Elçin.** Yazıçı, alim, pedaqoq // 525-ci qəzet. - 2021. - 23 yanvar. - № 13. - S. 12-14.

**Eminov A.** "Bir Gəncin Manifesti" tariximizin inikasıdır // Azərbaycan müəllimi. – 2006. – 22 sentyabr. – S.7.

**Eminov A.** Mir Cəlal nəsrində təbiət: dolğun təsvirlər,canlı lövhələr // 525-ci qəzet. - 2022. -16 aprel. - № 66. - S. 18.

**Əhmədov B.** Çox məmnun oldular : Mir Cəlal – 100 // Ədəbiyyat qəzeti. - 2008. - 20 iyun. - S. 2.

**Əhmədov T.** Əbədiyaşar şəxsiyyət // Təhsil problemləri. - 2008. - 11-20 may. - № 27-28. - S. 13.

**Ələddinqızı N.** Xeyirxah insan, görkəmli yazıçı, böyük alim - Mir Cəlal Paşayev // Səs. - 2022. - 26 aprel. - № 72. - S. 6.

**Əlişanoğlu T.** XX əsr Azərbaycanədəbiyyatı korifeyləri-Mir Cəlal : Ədibin 115 illiyinə // Ədəbiyyat qəzeti. - 2023. - 29 aprel. - № 16. - S. 12-13.

**Əliyev A.** Mir Cəlal - baharların arxası, dayağı : Mir Cəlal - 100 // Azad Azərbaycan. - 2007 - 16 dekabr. - S. 6.

**Əliyev S.** Mir Cəlal Paşayev çağdaş Azərbaycan ədəbiyyatının görkəmli simalarındandır // Azərbaycan. – 2016. – 27 aprel. - № 8. – S.12.

**Əliyev Y.** Ədibin nəsrinə məhəbbətlə // Azərbaycan müəllimi. – 1998. – 10 dekabr. – S.4.

**Əliyeva İ.** Mir Cəlal böyük şəxsiyyət idi // Azərbaycan. – 2005. – 26 aprel. – S. 4.

**Əliyeva İ.** Unudulmaz sənətkar // Azərbaycan. – 1999. – 24 yanvar. – S.4.

**Əliyeva N.** Müasir füzulişünaslığın banisi : Mir Cəlal // Azərbaycan. - 2007. - 13 iyun. - S.7.

**Əlmirzəyev X.** Gəncliyin yaxın dostu // Azərbaycan gəncləri. – 1968. – 18 may. – S.3.

**Əlmirzəyev X.** Görkəmli yazıçı-alim, unudulmaz müəllim // Ədəbiyyat və incəsənət. – 1988. – 28 aprel. – S. 7.

**Ənvəroğlu H.** Ustad sənətkar, qüdrətli ədəbiyyatşünas, böyük pedaqoq // Təhsil problemləri. - 2008. - 11-20 may. - № 27-28. - S. 10.

**Ənvəroğlu H.** Ustad sənətkar, qüdrətli ədəbiyyatşünas, böyük pedoqoq : Mir Cəlal // Xalq qəzeti. - 2008. - 22 fevral. - S. 6.

**Əsədov V.** Xeyirxahlıq nümunəsi // Xalq qəzeti. – 2008. – 20 iyul. – S. 4.

**Əsədova İ.** Böyük yazıçı, vətəndaş, müəllim : Aprelin 26-da görkəmli yazıçı və ədəbiyyatşünas-alim, Əməkdar elm xadimi, professor Mir Cəlal Paşayevin anadan olmasının 102-ci ildönümü tamam olur // Mədəniyyət. - 2010. - 23 aprel. - N 25. - S. 13.

**Fərəcova Z.** Örnək insan ömrü : [Mir Cəlal Paşayev haqqında] // Azərbaycan. - 2021. - 25 aprel. - № 86. - S. 6.

**Fuad E.** Ürəklərdə əbədi yaşamaq səadəti // Respublika. – 2008. – 25 aprel. – S. 7.

Görkəmli alim və yazıçı Mir Cəlal Paşayevin anadan olmasının 100 illik yubileyi Gəncədə təntənə ilə qeyd edilmişdir // Ədəbiyyat qəzeti. - 2008. - 11 aprel. - S. 1.

Görkəmli nasir, alim və pedaqoq : Mir Cəlal - 100 // Təhsil problemləri. - 2008. - 11-20 may. - № 27-28. - S. 2-3.

Görkəmli yazıçı, ədəbiyyatşünas alim, Əməkdar Elm Xadimi Mir Cəlal Paşayevin "Seçilmiş əsərləri"nin təqdimatı olmuşdur (30 aprel) // Respublika. - 2014. - 1 may. - № 89. - S. 8.

**Hacıyev T.** Mir Cəlal: Dilin bədiiliyi və bədiiliyin dili : Yazıçı Mir Cəlalın yaradıcılığı haqqında // Azərbaycan müəllimi. - 2006. - 23 iyun. - S.3.

**Həsənzadə N.** Ədibin evi : poema // Ədəbiyyat qəzeti. - 2022. - 13 avqust. - № 29/30. - S. 2-3.

**Hüseynoğlu S.** Hacıqabulda Mir Cəlalın 100 illiyi ilə bağlı elmi-praktik konfrans // Xalq qəzeti. - 2008. - 3 may. - S. 5.

**Hüseynoğlu T.** Həmişəyaşar böyük sənətkar : Mir Cəlal - 100 // Respublika. - 2008. - 1 may. - S. 9.

**Hüseynov F.** İşıqlı adam // Ədəbiyyat qəzeti. – 2013. – 15 noyabr. – № 42. - S. 6.

**Hüseynov F.** Qələmin qüdrəti // Bakı. – 1978. – 5 may. – S. 3.

**Hüseynov R.** Unudulmaz müəllim haqqında xatirələrim // Mədəniyyət. - 2008. - 1 may. - S. 3.

**Hüseynova Ş.** Ədibi xatırlarkən... // Azərbaycan. – 1997. – 12 fevral. – S. 4.

**Xəlilov B.** Mir Cəlalın dilçilik görüşləri // Xalq qəzeti. - 2008. - 26 aprel. - S. 9.

**Xəlilzadə F.** Həyat həqiqətinə sadiqlik // Azərbaycan. – 2003. – 25 aprel. – S. 8.

**Xəlilzadə F.** İllərin ucalığında : Mir Cəlal Paşayev çox sadə və genişürəkli bir insan idi // Kaspi. - 2016. - 26 aprel. - № 70. - S. 6.

**Xəlilzadə F.** Nur çeşməsi : Mir Cəlal - 105 // Azərbaycan. - 2013. - 26 aprel. - № 88. - S. 12.

**Xəlilzadə F.** Unudulmayan müəllimim, sevdiyim yazıçı // 525-ci qəzet. - 2022. - 28 sentyabr. - № 175. - S. 8.

Xeyirxah insan, böyük alim, görkəmli yazıçı : Aprelin 26-sı Mir Cəlal Paşayevin doğum günüdür // Respublika. - 2010. - 27 aprel. - N 88. - S. 6.

**İdrisoğlu F.** Görkəmli yazıçı Mir Cəlal Paşayevin 100 illiyi qeyd olundu // Azərbaycan müəllimi. – 2008. – 4 aprel.

**İsmayılov T.** Həmişəyaşar müqtədir yazıçımız // Azərbaycan. – 1998. – 29 avqust.

**İsmayılov Y.** Yaddaşımda, pasportumda // Azərbaycan gəncləri. – 1988. – 30 aprel.

**Qasımov H.** Mir Cəlalın "Yaşıdlarım" romanının tədqiq tarixindən bir məqam : Mir Cəlal - 100 // Təhsil problemləri. - 2007. - 11-20 oktyabr. - S. 3-4.

**Quliyeva A.** Mir Cəlal yaradıcılığında dil və üslub xüsusiyyətləri // Həftə içi. - 2015. - 18 noyabr. - № 171/209. - S. 7.

**Qurbanov Q.** Görkəmli yazıçı, alim, əsl vətəndaş : Mir Cəlal – 100 // Xalq qəzeti. - 2008. - 11 iyun. - S. 6.

**Qurbanov Ş.** Sevilən və undulmaz müəllim Mir Cəlal // Təhsil problemləri. - 2008. - 11-20 may. - № 27-28. - S. 15.

**Qurbanqızı Z.** Bir ömrün manifesti // Respublika. - 2022. - 28 sentyabr. - № 210. - S. 12.

**Qurbanqızı Z.** Mir Cəlal Paşayev: yazıçı,alim,pedaqoq... // Respublika. - 2022. 26 aprel. - № 86. - S. 5.

**Qurbanqızı Z.** Mir Cəlal: sadəliyin müdrikliyi / Z. Qurbanqızı // Respublika. - 2021. - 25 aprel. - № 86. - S. 3.

Qürurlu ömür yaşamış böyük insan, milli ruhlu ədib və görkəmli ədəbiyyatşünas alim : elmi sesiya // Ədəbiyyat qəzeti. - 2008. - 9 may. - S. 5.

**Mehdixanlı T.** Allah adamı // Azərbaycan müəllimi. – 1998. – 26 noyabr.

**Məhərrəmova T.** Şəxsiyyəti də bir məktəb olan ədib // Kaspi. - 2020. - 26 sentyabr. - № 145. - S. 10.

**Məmmədov C.** Bir müəllim tanıyırdım // Ulduz. - № 4. – 1988. – S. 55-59.

**Məmmədov Ş.** Görkəmli alim, istedadlı yazıçı // Azərbaycan müəllimi. – 1998. – 20 avqust. – S. 3.

**Məmmədov Ş.** Həmişə ürəklərdə yaşayan yazıçı, alim, pedaqoq : Mir Cəlal - 100 // Azərbaycan müəllimi. - 2008. - 25 aprel . - S. 6.

**Məmmədov S.** Müəllimlər müəllimi // Təhsil problemləri. - 2008. - 11-20 may. - № 27-28. - S. 14.

**Məmmədov X.** Ədəbiyyatşünaslıq abidəsi // Ədəbiyyat qəzeti. – 2005. – 11 noyabr. – S. 1-2.

**Mikayılov Ş.** Mir Cəlalın ədəbi-elmi fəaliyyəti // Təhsil problemləri. - 2008. - 11-20 may. - № 27-28. - S. 4.

**Mikayılov Ş.** Xatirələrdə yaşayan yazıçı, alim, müəllim : Mir Cəlal Paşayev // Təhsil problemləri. - 2013. - 24-30 sentyabr. - № 71/72. - S. 1.

Mir Cəlal // Azərbaycan. – 2008. – 25 aprel. – S. 8.

Mir Cəlal dünyası : Azərbaycanın böyük yazıçısı və aliminin xatirəsini anarkən // Respublika. - 2009. - 25 aprel. - S. 5.

Mir Cəlal Paşayevin Ədəbiyyatsa romantizm əsərinin 4 dildə ilk nəşrinin təqdimatı olub // Xalq qəzeti. - 2022. - 28 aprel. - № 88. - S. 6.

Mir Cəlal Paşayevin xatirəsi anıldı // Respublika. - 2008. - 16 aprel. - S. 7.

Mir Cəlalın əsərləri dünənimizdən bu günümüzə ədəbi-bədii körpüdür // İki sahil. - 2020. - № 169. - S. 11 ; Yeni Azərbaycan. - 26 sentyabr. - № 169. - S. 4 ; Respublika. - 26 sentyabr. - № 196. - S. 4.

**Mirzəzadə R.** Ailəsinə və xalqına bağışlanan zəngin irs : 26 aprel görkəmli yazıçı, alim və pedaqoq Mir Cəlal Paşayevin doğum günüdür // Həftə içi. - 2015. - 23 aprel. - № 71. - S. 4-5.

**Muradov C.** Mir Cəlal - 100 // Ədəbiyyat qəzeti. - 2008. - 4 aprel. - S. 3.

**Mürsəlova O.** Müdrik insan - Mir Cəlal Paşayev // Səs. - 2016. - 26 aprel. - № 73. - S. 7.

**Mustafayeva R.** Mir Cəlalın hekayələrində tərbiyə məsələləri // Təhsil problemləri. - 2008. - 11-20 may. - № 27-28. - S.11.

**Mütəllibov T.** Bir yazıçının manifesti // Azərbaycan gəncləri. – 1978. – 6 may. – S. 3.

**Mütəllibov T.** Sevimli yazıçı, mehriban insan // Ədəbiyyat və incəsənət. – 1986. – 28 may.

**Mütəllimov T.** Bədii üslub - sənətkar xarakteridir // Ədəbiyyat qəzeti. - 2023. - 13 may. - № 18. - S. 6.

**Mütəllimov T.** Tale təzadlarının acı qisməti // 525-ci qəzet. - 2022. - 19 fevral. - № 32. - S. 11.

**Namazov Q.** Mir Cəlal məktəbi // Respublika. - 2008. - 26 aprel. - S. 10.

**Nəbiyev A.** Klassik irsə məhəbbətlə : Mir Cəlal - 100 // Ədəbiyyat qəzeti. - 2008. - 18 aprel. - S. 1,7.

**Nəbiyev B.** Ədibin yaradıcılıq yolu // Azərbaycan müəllimi. – 1968. 17 may. – S.4.

**Nəbiyev B.** Mir Cəlalın ədəbi-nəzəri görüşləri // Azərbaycan müəllimi. - 2008. - 23 may. - S. 4.

**Nəcəfxanlı Ə.** Duyğu və düşüncələrimizin ədəbi tərcümanı // Xalq qəzeti. - 2023. - 27 aprel. - № 85. - S. 11.

**Nəcəfxanlı Ə.** Mir Cəlal - böyük insan, böyük ədib, böyük müəllim // Xalq qəzeti. - 2022. - 26 aprel. - № 86. - S. 9.

**Niftəliyev A.** Mir Cəlal romanlarında tərbiyə məsələləri // Azərbaycan müəllimi. – 1978. - № 5. – S. 69-72.

**Niftəliyev A.** Xoşbəxtlik // Pioner. – 1978. - № 4. – S. 17.

**Osmanlı N.** Görkəmli ədəbiyyatşünas alim // Azərbaycan. - 2007. - 24 aprel. - S.8.

**Paşayeva N.** Yazıçı və zaman : Mir Cəlal - 100 // Azərbaycan. - 2008. - 27 sentyabr. - S. 12.

**Rəhimli İ.** Badam çiçəklərinin ətri : Mir Cəlalın üç cildlik "Seçilmiş əsərləri" barədə düşüncələri // Azərbaycan. - 2009. - 25 fevral. - S. 8.

**Rzayev M.** Portsiqar, aşıqlar kitabı və Koroğlunun Qıratı : Mir Cəlal - 100 // Mədəniyyət. - 2008. - 9 may. - S. 5.

**Sadıqova A.** Ədəbiyyat kəhkəşanının sönməz ulduzu : Mir Cəlal Paşayev haqqında // Azərbaycan. - 2011. - 26 aprel. - № 88. - S. 6.

**Sadıqzadə F.** Böyük ədibin sənətinə layiq // Azərbaycan gəncləri. – 1983. – 28 aprel. – S. 4.

**Səfiyeva F.** Böyük yazıçı, alim və əqidə adamı // Ədəbiyyat qəzeti. - 2023. - 21 aprel. - № 15. - S. 4.

**Sərdarov E.** Görkəmli yazıçı, alim, pedaqoq : Mir Cəlal Paşayev - 108 // Respublika. - 2016. - 27 aprel. - № 89. - S. 10.

**Sərvaz.** "Göylər adamı"nın yerdəki insanlığı : Mir Cəlal - 100 // Ədəbiyyat qəzeti. - 2008. - 6 iyun. - S. 2.

**Sərvaz.** "O, qürurla, öz dəyərini bilərək yaşadı..." : Mir Cəlal - 100 / Sərvaz // Ədəbiyyat qəzeti. - 2008. - 25 aprel. - S. 2.

**Teymur M.** Bir saylı şəxsi fonddakı sənədlərin işığı : Mir Cəlal Paşayev-100 // Mədəniyyət. - 2008. - 7 iyun. - S. 3. ; 12 iyun. - S.3.

**Ülvi A.** Böyük yazıçı, alim, pedaqoq : Azərbaycanın görkəmli şəxsiyyətləri // Xalq qəzeti. - 2007. - 3 mart. - S.9.

**Vahabzadə B.** Qırz illik yol // Ədəbiyyat və incəsənət. – 1968. – 18 may. – S. 10.

**Yusifli V.** Ədəbiyyatda romantizm - Mir Cəlalın yeni əsəri tapıldı // Ədəbiyyat qəzeti. - 2022. - 30 aprel. - № 15. - S. 2.

**Yusifoğlu R.** Müasirimiz Mirzə Cəlil // Ədəbiyyat qəzeti. - 2011. - 12 avqust. - № 30. - S. 5.

**Zamanov A.** Yazıçı, alim, müəllim // Kommunist. – 1978. – 6 may.

**Tərtib etdi:** **Mustafayeva Nigar**